# "Simurq Liseyi" Təhsil Kompleks MMC
# DAVRANIŞ SİYASƏTİ

## MƏQSƏD VƏ TƏTBİQ SAHƏSİ

Bu siyasətin məqsədi şagirdlər üçün davranış gözləntilərini müəyyənləşdirmək, xarakter inkişafı üçün hüquqi-pedaqoji çərçivə yaratmaq, qarşılıqlı hörmət, məsuliyyət və əməkdaşlıq dəyərlərinə əsaslanan məktəb mədəniyyətini qorumaqdır. Siyasət liseyin bütün şagirdlərinə, bütün tədris prosesinin iştirakçı və mərhələlərinə şamil olunur.

## SİYASƏT BƏYANATI

Simurq Liseyi hər bir şagirdin hərtərəfli inkişafını təşviq edən, hörmətə əsaslanan öyrənmə mühiti yaratmaq prinsiplərinə sadiqdir. Davranış Siyasəti akademik və şəxsi inkişaf üçün təhlükəsiz, inklüziv və əlverişli mühit təmin etmək məqsədilə davranış standartlarını və bu standartların pozulmasının nəticələrini aydın şəkildə müəyyən edir.

## ƏSASLANDIRMA

Liseydə müsbət davranışın təşviqi təhsilin keyfiyyətinin ayrılmaz hissəsidir. Bu siyasətin tətbiqi elə bir mühit yaradır ki, burada qarşılıqlı etimad qorunur və məktəbin strateji hədəfləri nümayiş olunan nizamlı davranışlar vasitəsilə təzahür edir.

## TƏHSİLALANLARIN (ŞAGİRDLƏRİN) VƏZİFƏLƏRİ

- dərslərə vaxtında, vahid geyim forması və tam ləvazimatla gəlmək;
- dərs müddətində öyrənməni dəstəkləmək üçün aktiv dinləməli, müəllim sinfə müraciət edərkən danışmaq üçün əlini qaldırmalı, səs tonu və bədən dilinə diqqət etməli
- heyətə və digər şagirdlərə qarşı nəzakətli olmaq, qeyri-etik və təhqiramiz ifadələrin işlədilməsinə, zorbalığın (fiziki və ya psixoloji) hər hansı formasına yol verməmək;
- təyin edilən korreksiyaedici tədbirin tələblərini yerinə yetirmək və buna cidd-cəhdlə etiraz etməmək;
- Məktəbdə təhsilverənləri və texniki heyəti verbal, fiziki, sosial-psixoloji və ya kiberqısnamaya məruz qoymamaq;
- gecikmə zamanı müəyyən edilmiş gözləmə proseduruna tabe olmaq;
- elektron cihazlardan icazəsiz istifadə etməmək (icazəsiz istifadə olunan cihazlar müvəqqəti müsadirə edilir və yalnız valideynə verilir);
- liseyin və digər şəxslərin əmlakına ziyan vurmamaq;

● sinif otağı və ya digər tədris məkanını, məktəb ərazisini natəmiz saxlamaq və çirkləndirməmək;
● liseyə kənar və təhlükəli aşyalar gətirməmək, icazəsiz ticarət fəaliyyəti ilə məşğul olmamaq;
● liseyin hüdudlarından kənarda təşkil olunan tədbirlərdə ( ekskursiya və digər gəzinti ) məktəb qaydalarına riayət etmək .

**TƏHSİLVERƏNLƏRİN (MÜƏLLİMLƏRİN) VƏZİFƏLƏRİ**
● əmək müqaviləsi üzrə müəyyənləşdirilmiş əmək funksiyalarını peşəkarlıqla yerinə yetirmək ;
● dərsin operativ başlamasını təmin etmək ;
● hər bir şagirdin fərdi potensialını nəzərə alan nəticəyönümlü tədris mühiti qurmaq ;
● şagirdləri fiziki və psixoloji zorakılığın bütün formalarından qorumaq,sinifdə emosional münaqişələrə yol verməmək ;
● öz davranışı,geyimi və nitqi ilə şagirdlər üçün nümunə olmaq;
● şagirdlərin davranışında yaranan neqativ meyillər barədə rəhbərliyi və valideyni vaxtında məlumatlandırmaq.

**VALİDEYN VƏ QANUNİ NÜMAYƏNDƏLƏRİN VƏZİFƏLƏRİ**
● şagirdin liseyin "Davranış Siyasətinə" qeyd-şərtsiz riayət etməsini təmin etmək və məktəb tərəfindən tətbiq olunan intizam tədbirlərini ev mühitində dəstəkləmək;
● müəllim hetəti və ya rəhbərlik tərəfindən edilən çağırışlara, göndərilən rəsmi bildirişlərə ən geci 24 saat ərzində reaksiya vermək;
● şagirdin dərsə vaxtında gəlməsinə, səxsi gigiyenasına,vahid geyim formasına və tədris ləvazimatları ilə tam təchiz olunmasına birbaşa məsuliyyət daşımaq ;
● şagird tərəfindən lisey əmlakına , avadanlıqlarına və ya binasına vurulmuş hər hansı maddi ziyanın dəyərini tam şəkildə kompensasiya etmək;
● hər hansı narazılıq və ya sual yarandıqda, bunu təyin olunmuş zaman çərçivəsində rəhbərliklə etik normalar daxilində müzakirə etmək .

***İntizam pozulmalarına əsasən şagirdlərə müvafiq olaraq virtual sarı və qırmızı kartlar verilir. Virtual sarı və qırmızı kartların qüvvədə olma müddəti 1 (bir) tədris ilidir.***

**MÜSBƏT HƏVƏSLƏNDİRMƏ SİSTEMİ**

Nailiyyət və yaxşı davranışın mükafatlandırılması vacibdir. Bunu həyata keçirməyin əsas yolları yaxşı işin dəyərləndirilməsi, xüsusi səy, davranışdakı irəliləyiş, məktəb tədbirlərində könüllü yardım və s. kimi halların qeyd olunmasıdır.

Şagirdlər nümunəvi davranışa görə rəğbətləndirilirlər.

Nümunəvi davranış 3 meyara əsasən dəyərləndirilir:

1. intizam;
2. sosial məsuliyyət;
3. akademik nailiyyətlər.

Hər altmeyar üçün 1 virtual yaşıl kart nəzərdə tutulur.

**Müsbət Davranış nümunələri:**

- Məktəb formasında səliqəli və düzgün geyinmək;
- Davamiyyət və tapşırıqların təhvil verilməsində dəqiqlik;
- Məktəb fəaliyyətlərində iştirak;
- Yüksək məsuliyyət hissi nümayiş etdirmək;
- Yaxşı təşkilatçılıq bacarıqları göstərmək;
- Yarımillik və illik qiymətləndirmə yüksək nəticələr, məktəbdaxili yarış və müsabiqələrdə, respublika və beynəlxalq səviyyəli olimpiadalarda, müsabiqələrdə, yarışlarda uğurlu iştirak;

Hər yarımilin sonunda virtual yaşıl kartların sayına uyğun olaraq şagirdlər tərifnamə, təşəkkürnamə və ya fəxri fərmanla təltif olunur:

1. 3 virtual yaşıl kart - tərifnamə;
2. 5 virtual yaşıl kart - təşəkkürnamə;

3. 8 virtual yaşıl kart - fəxri fərman

**İNTİZAM TƏDBİRLƏRİ ( SANKSİYALAR )**

Lisey qayda pozuntularına qarşı mərhələli və konstruktiv yanaşma tətbiq edilir. Əsas məqsəd cəzalandırmaq deyil , şagirdin öz hərəkətlərinə görə fərdi məsuliyyətini təmin etməkdir.

Yüngul qayda pozuntuları zamanı müəllim və şagird arasında fərdi izahedici söhbət aparılır , ehtiyac yarandığı halda valideyn məlumatlandırılır .
Zorakılıq, təhqir və sair bu kimi şəxsi müstəviyə keçmiş hallarda məktəb şagird və aidiyyəti şəxslərlə birlikdə görüş keçirir. Valideynlər də bu prosesə cəlb edilə bilər. Davranış qaydalarını pozan şagirdin məsələni dərk etməsi və konpensasiya addımları gözlənilir.
Akademik tapşırıq verilməklə məktəbdən 3-5 günlük uzaqlaşdırma cəzası tətbiq edilə bilər.

**"SİMURQ LİSEYİ" MƏKTƏBƏHAZIRLIQ QRUPLARINDA İNTİZAM YANAŞMASI**

Məktəbəhazırlıq qruplarında uşaqlar üçün rəsmi cəza tədbirləri tətbiq edilmir. Davranış pozuntuları psixoloq dəstəyi və valideynlə rəsmi müzakirə vasitəsilə həll edilir. Davranışda müsbət dinamika müşahidə olunmadıqda uşağın liseydən kənarlaşdırılması məsələsinə baxılıb, xitam verilə bilər .

**"SİMURQ LİSEYİ" İBTİDAİ SİNİFLƏRİNDƏ**

İntizam tədbirləri predmeti olan davranış pozuntuları üç səviyyəyə bölünür:

| İBTİDAİ SİNİFLƏR | | |
|---|---|---|
| **Səviyyə 1**<br>**Xırda qayda pozuntuları** | **Səviyyə 2**<br>**Qayda pozuntuları** | **Səviyyə 3**<br>**Ciddi qayda pozuntuları** |
| Gündəlik adi hadisələr –<br>• Dərsə gecikmə.<br>• Ev tapşırığının və sinif işlərinin olmaması.<br>• Dərsə mane olan davranış.<br>• Kitabların olmaması və s. | Gündəlik adi hadisələr –<br>• Dərsə gecikmə.<br>• Ev tapşırığının və sinif işlərinin olmaması.<br>• Dərsə mane olan davranış.<br>• Kitabların olmaması və s. | Ciddi hadisələr –<br>• Dava etmək<br>• Zorbalıq<br>• İşçi heyətinə hörmətsizlik<br>• Məktəb əmlakına ziyan.<br>• Şagird əmlakına ziyan. |
| **Sanksiyalar** | | |
| **Səviyyə 1 (Xırda)** | **Səviyyə 2** | **Səviyyə 3 (Ciddi)** |
| Sinif müəllimi istənilən hadisəni 3 zərbə metodundan istifadə edərək idarə edəcək. Tədbir:<br>1-ci dəfə – aydın şifahi xəbərdarlıq.<br>2-ci dəfə – adı lövhədə qeyd olunur.<br>3-cü dəfə – şagirdin adı direktor müavininə/məktəb ofisinə elektron poçtla göndərilir. | Şagird bir ay və ya bir semestr ərzində 3 dəfə dərsdən yayındıqda görüləcək tədbir:<br>Müəllim hadisə aktını doldurub direktor müavininə təhvil verəcək.<br>Valideynlərə elektron poçt vasitəsilə məlumat veriləcək.<br>Sarı kart. | Müəllim zəruri hallarda şagidlərin adlarını da daxil olmaqla hadisə aktını doldurub iddiaları araşdıracaq direktor müavininə təhvil verəcək. Uşaqlarının davranışı ilə bağlı narahatlıqları müzakirə etmək üçün direktor müavini ilə görüşməsləri üçün valideynlərə elektron poçt vasitəsilə müraciət ünvanlanacaq.<br>Qırmızı kart. |
| Fənn müəllimi / sinif rəhbəri ilə məşvərət | Dərsdən sonra sinif rəhbəri ilə məşvərət<br>Direktor müavini ilə məşvərət | Direktorla məşvərət<br>Məktəb psixoloqu ilə məşvərət |
| Sinifdə verilən inzibati tapşırıqlar | Dərsdən sonra yerinə yetirilmək üçün verilən akademik tapşırıqlar | Dərsdən sonra yerinə yetirilmək üçün verilən akademik tapşırıqlar |
| Gündəlik hesabat tələb olunmur | Şagird haqqında 1 həftə ərzində gündəlik hesabat təqdim edilir | Şagird haqqında 2 həftə ərzində gündəlik hesabat təqdim edilir |
| Məktəbdən uzaqlaşdırma tətbiq olunmur | Məktəbdən uzaqlaşdırma tətbiq olunmur | Məktəbdən uzaqlaşdırma tətbiq olunur |
| Məktəbdən xaric edilmə tətbiq olunmur | Məktəbdən xaric edilmə tətbiq olunmur | Məktəbdən xaric edilmə tətbiq olunur |

**"SİMURQ LİSEYİ" ÜMUMİ ORTA VƏ TAM ORTA TƏHSİL SƏVİYYƏLƏRİNDƏ**

İntizam tədbirləri predmeti olan davranış pozuntuları üç səviyyəyə bölünür:

| **ORTA VƏ YUXARI SİNİFLƏR ÜZRƏ DAVRANIŞ POZUNTULARI** | | |
|---|---|---|
| **Səviyyə 1**<br>**Xırda qayda pozuntuları** | **Səviyyə 2**<br>**Qayda pozuntuları** | **Səviyyə 3**<br>**Ciddi qayda pozuntuları** |
| • İtaətsizlik<br>• Kəskin və ya kobud danışıq<br>• İcazəsiz dərsi tərk etmək<br>• İcazəsiz elektron cihazlardan istifadə<br>• Məktəb əmlakına zərər vurmaq<br>• Cavab qaytarmaq<br>• Təmizliyi pozmaq / zibilləmək<br>• Dərsdə yemək / saqqız çeynəmək<br>• Uyğun olmayan geyim<br>• Tapşırıqları gec təqdim etmək<br>• Ev tapşırığının olmaması<br>• Gecikmək<br>• Dərsdə narahatlıq yaratmaq / səslilik | • Kiçik qayda pozuntularının təkrarlanan (davamlı) forması<br>• Nəcib olmayan / kobud / aqressiv şərhlər<br>• Oğurluq<br>• Məktəbə getməmək / dərsdən qaçmaq<br>• Irqçi / cinsi ayrı-seçkilik şərhləri<br>• Zorakılıq / təhqir / qorxutma<br>• Məktəb avadanlıqlarından düzgün istifadə etməmək / zərər vermək<br>• İmtahanlarda saxtakarlıq etmək<br>• Plagiat | • Siqaret çəkmək<br>• Zorakılıq / kibertəzyiq (cyber bullying)<br>• Vurma / təpik atma / dava / fiziki zorakılıq<br>• Məktəb ərazisinə təhlükəli əşyalar gətirmək<br>• İcazəsiz materialların, o cümlədən elektron cihazlar və mobil telefonların imtahan zalında olması<br>• Başqalarına qarşı qeyri-etik davranmaq, açıq-aşkar hörmətsizlik etmək<br>•Nizamı pozan davranışa təkrar yol vermək |

| **Sanksiyalar** | | |
|---|---|---|
| **Səviyyə 1 (Xırda)** | **Səviyyə 2** | **Səviyyə 3 (Ciddi)** |
| Şifahi xəbərdarlıq / töhmət | Yazılı xəbərdarlıq<br>Valideynlə əlaqə<br>Sarı kart | Yazılı xəbərdarlıq<br>Valideyn məktəbə dəvət edilir<br>Qırmızı kart |
| Fənn müəllimi / sinif rəhbəri ilə məşvərət<br>Məktəb psixoloqu ilə məşvərət | Dərsdən sonra sinif rəhbəri ilə məşvərət<br>Direktor müavini ilə məşvərət<br>Məktəb psixoloqu ilə məşvərət | Direktorla məşvərət<br>Məktəb psixoloqu ilə məşvərət |
| Sinifdə verilən inzibati tapşırıqlar | Dərsdən sonra yerinə yetirilmək üçün verilən akademik tapşırıqlar | Dərsdən sonra yerinə yetirilmək üçün verilən akademik tapşırıqlar |
| Gündəlik hesabat tələb olunmur | Şagird haqqında 1 həftə ərzində gündəlik hesabat təqdim edilir | Şagird haqqında 2 həftə ərzində gündəlik hesabat təqdim edilir |
| Məktəbdən uzaqlaşdırma tətbiq olunmur | Akademik tapşırıq verilməklə məktəbdən 1-3 günlük uzaqlaşdırma | Akademik tapşırıq verilməklə məktəbdən 3-5 günlük uzaqlaşdırma |
| Məktəbdən xaric edilmə tətbiq olunmur | Pozuntuların 2 dəfədən artıq təkrarlandığı və görülən tədbirlərin nəticəsiz qaldığı halda şagird məktəbdən xaric edilə bilər | Şagird məktəbdən xaric edilir |

**Nəzarət və İcra**
Məktəb rəhbərliyi, müəllimlər və heyət bu siyasətin icrasına nəzarət edir. Davranış məsələləri ilə bağlı narahatlıqların dərhal və birlikdə aradan qaldırılması üçün valideynlərlə və ya qanuni nümayəndələrlə müntəzəm əlaqə saxlanılır.

**Yenidən baxış və ya yenilənmələr**
Bu siyasət effektivliyin təmin edilməsi məqsədi ilə müəllimlərin, şagirdlərin, valideynlərin ( qanuni nümayəndələr ) də rəyləri nəzərə alınmaqla dövri olaraq yenidən qiymətləndirilir və zəruri dəyişikliklər edilir.

**“Simurq Liseyi” Təhsil Kompleksi MMC-nin Baş İcraçı Direktoru**

**Tural Abasquliyev**

**İmza**

AZƏRBAYCAN RESPUBLİKASI «SİMURQ LİSEYİ TƏHSİL KOMPLEKSİ» Məhdud Məsuliyyətli Cəmiyyəti AZERBAIJAN REPUBLIC